# Naftalan öz zabit şəhidini böyük izdihamla son mənzilə yola saldı

*Cəbhənin Goranboy rayonu istiqamətində mənfur erməni silahlı qüvvələrinin torpaqlarımıza qəfil hücumunun qarşısını müvəffəqiyyətlə alarkən, yağı düşmənlə gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olan Azərbaycan ordusunun cəsur oğlu, zabit Bayramov Vaqif Dilqəm oğlu böyüyüb boya-başa çatdığı Naftalan şəhərində böyük izdihamla son mənzilə yola salınmışdır.*



Dəfn mərasimində Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin xidmət etdiyi hərbi hissənin zabit və əsgərləri, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər ictimaiyyətinin nümayəndələri, Qarabağ müharibəsi veteranları, şəhidin doğmaları və əzizləri, minlərlə insan iştirak edirdilər. Hərbçi yoldaşları vidalaşıb, yola salınan Vaqif Bayramovun şərəfli ömür yoluna, igidliyinə, vətənpərvərlik salnaməsinə nəzər salaraq, döyüş meydanındakı qəhrəmanlığını hər kəsə nümunə kimi qiymətləndirdilər. Bəli, Vətən, torpaq uğrunda canından keçənlər, özlərini fəda edənlər ölmürlər. Aylar, illər, fəsillər keçdikcə, onların göstərdikləri igidliklər dillərdə gəzir, nəsillərdən-nəsillərə ötürülür. Beləliklə, xalq öz igid, qəhrəman övladlarına qəlbində əbədi heykəl ucaldır. Məhz, Vaqif Bayramov bütün hərbiçilərə örnək idi, deyən hərbiçi zabitlər onunla qürur duyduqlarını bildirdilər.

Dəfn mərasimində gənclərin “Şəhidlər ölməz, vətən bölünməz” şuarı səsləndirilərək, bir dəqiqəlik sükutdan sonra şəhidin cənazəsi, şəhər qəbiristanlığında yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılmış, məzarı üstünə dövlət rəsmiləri və sakinlər tərəfindən əklil və tər qərənfillər qoyulmuşdur.

Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağını şəhidin atasına təqdim edərək, bildirdi ki, vətənpərvərliyin ən ali məqamı — şəhidlikdir. Bu ucalığa yüksələnlərin ömür yolu nə qədər qısa olsa da, şərəfli və örnək sayılır. Sonra şəhər rəhbəri qüdrətli Azərbaycan ordusunun düşmənə hər an tutarlı cavab verməyə hazır olduğunu, şəhidlərimizin qanının yerdə qalmayacağını, ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək, torpaqlarımıza qovuşacağımızı tam əminliklə bildirdi.

Şəhid atası oğul itkisinin ağır olmasına baxmayaraq, özünün və ailə üzvlərinin Vaqif Bayramovun şəhidliyindən qürur duyduqlarını bildirdi: Təki Vətən sağ olsun!

**Zabit XƏLİLOV,**
**“Respublika”.**